# Salam, əziz televiziyam



**Günel MƏLİKLİ**

*"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Teleradio Akademiyasının tələbəsi, dosent*

## Televiziya imkanlarından maksimum dərəcədə səmərəli və məqsədyönlü istifadə olunması dövlətin və millətin tərəqqisi üçün çox önəmli məsələdir.

**Mən Günel Məlikli bir zaman şagird idim və həyatda yalnız bir missiyam vardı - Ulu öndərimiz Heydər Əliyevə layiq olan gənclər sırasında olmaq. Prezident İlham Əliyevin "Gənclərə müraciət edirəm! Mən sizinləyəm, mən sizi həmişə dəstəkləmişəm. Bu gün də dəstəkləyirəm və gələcəkdə də dəstəkləyəcəyəm" sözləri əslində Azərbaycan gəncliyinin qarşısında açılan aydın üfüqlərdir. Azərbaycan gəncliyi xoşbəxtdir ki, uzaqgörən lideri, qətiyyətli Prezidenti ona daha güclü, daha zəngin bir Azərbaycan bəxş edib.**

Azərbaycan televiziyasının izləyicisi olaraq, ona hədsiz böyük marağım vardı və onun tarixini bilmək istəyirdim. Ən böyük istəklərimdən biri də televiziyaya gəlmək idi. Televiziya sözü XX əsrin əvvəllərində meydana gələrək, yunanca uzaq mənasında işlənən "tele" və latınca görmək mənasında işlənən "visio" sözlərindəndir. Televiziyanın ilk mexaniki modulunu 1884-cü ildə Almaniya universitetinin tələbəsi olan Paul Gottlieb Nipkow hazırlayıb. Azərbaycanda 1956-cı il ilk veriliş günü ekranda gənc aktrisa Nəcibə Məlikova çıxışını "Göstərir Bakı!" kəlməsi ilə açmışdır. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilmişdi. Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə televiziya və radiomuz görkəmli elm və mədəniyyət xadimlərimizin tribunasına çevrilmişdir. Televiziya imkanlarından maksimum dərəcədə səmərəli və məqsədyönlü istifadə olunması dövlətin və millətin tərəqqisi üçün çox önəmli məsələdir. Televiziyanı həmişə sevmişəm, məsuliyyətini, ağırlığını da anlamışam. Universitetdə oxuduğum illərdə böyük jurnalist, pedaqoq Nəsir İmanquluyevin əsərlərini həmişə həyəcanla oxuyurdum. Mən elmin çətin, keşməkeşli, əzəmətli böyük yollarında zirvələrdə qalxaraq televiziyanın qəlbimdə getdikcə dərin kök saldığını hiss edirdim. Elmin, təhsilin, milli təfəkkürün, mədəniyyətin inkişafında mühüm rol oynayan Teleradio Akademiyasının yaranması Azərbaycan Televiziyasının gördüyü işlərdə ən əlamətdar hadisələrindən biridir.

Teleradio Akademiyası yarandığı gündən maarif və mədəniyyətin sönməz ocağına çevrilmişdir. Teleradio Akademiyası Azərbaycan Televiziyasının tabeliyində fəaliyyət göstərən təhsil müəssisəsi ali təhsil bazası əsasında peşəkar mütəxəssislərinin hazırlanması, təkmilləşdirilməsidir.

Gənclik bilməz dinclik nədir. Bu gün sabahın jurnalisti sorağıyla "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Teleradio Akademiyasına qəbul olmağım mənim böyük sevincimə, ən uca arzularımdan birinə çatmağıma, müasir televiziya və radionun sehirli aləmi ilə tanış olmağıma səbəb olmuşdur.

Tədris zamanı yerli alim və mütəxəssislərlə yanaşı, Türkiyə, Rusiya, Avropa ölkələri, eləcə də ABŞ-dan telemütəxəssislər dərs demək üçün akademiyaya dəvət edilir. Teleradio Akademiyasının rektoru Telli xanım Əliyeva Azərbaycan jurnalistikasının müasir inkişaf istiqamətlərindən söhbət açaraq, jurnalistlərin peşəkar kadr kimi yetişməsi üçün nəzəri biliklərlə yanaşı, təcrübi vərdişlərin aşılanmasının zəruri olduğunu biz gənclərə aşılamışdır.

Bu gün akademiyada yüksək ixtisaslı, intellektli, hərtərəfli biliyə malik müəllim heyəti çalışır. Müəllimlərimiz peşəkar jurnalistlər Sevda Ağazadə, Aygün Qaradağlı, Rafiq Həşimov, ali dərəcəli rejissor Əlimürsəl Hacızadə və bizlərə ingilis dilini akademik səviyyədə öyrədərək təkmilləşdirən Sədaqət Məmmədova.

Xüsusilə müəllimimiz Rövşən Məmmədov. Rövşən müəllimin bizə dərs dediyini eşidəndə çox həyəcanlı idim və hədsiz sevindim. Saat 10:00-da ilk saatımızda Rövşən müəllimin gələcəyini bildirdilər. Bu sevimli insanla görüşəndə hiss və həyəcanlarımı boğa bilməmişdim. Rövşən müəllim bunu dərhal hiss etmiş, mənə böyük diqqət, qayğı göstərmişdir. Gənclərin böyük uğurlarında şübhəsiz hər bir müəllimin əməyi var.

Rövşən müəllim televiziya, jurnalistika sahəsində yeni əsrin yenilikçilərindən biridir. Aztv-nin izləyicisi olmaqla yanaşı, məhz onun televiziya sahəsi üzrə tələbəsi olmaqla, bunun canlı şahidi oluram.

Rövşən müəllim yaradıcı bir insan kimi gəncliyi aydın sabahlara addımladır. Coşğun fəaliyyəti bu gün akademiyada təhsil alan tələbələrə sirayət edir. Gəncliyə ötürülən enerji, müəllimimizin şəxsi nümunəsi, bir növ "master klass" dərsləridir. Dərsimizdə hər bir gəncə fürsətdən səmərəli istifadə etməyi, jurnalistika peşəsinin sirlərini öyrədir. Rövşən müəllimin bizə ilk sözünü heç vaxt unutmaram: "Siz ilk öncə sədaqətli, səmimi, mərd və ən əsası insan olmalısız".

Rövşən Məmmədov Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində bakalavr və magistr təhsili alıb. Sonra elmi işlərini böyük əzmlə davam etdirərək elmlər doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Alim "Azərbaycan diasporu və milli mətbuat", "Avropada Azərbaycan diasporu", "Lider jurnalist" kimi kitabların və xeyli sayda əsərlərin müəllifi olaraq, Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilib. Rövşən müəllim "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə mənəvi səliqə, sağlam iqlim gətirmişdir. Azərbaycan televiziyasında işgüzar mühit yaradaraq, kollektivin həvəslə, uğurla çalışmasına nail olmuşdur. Aztv-nin keçdiyi müasir şərəfli yolda Rövşən müəllimin öz dəst-xətti, imzası vardır.

* * *

Teleradio Akademiyası mənim üçün kiçik bir "planet"dir, uçuş meydanıdır. Sevdiyim, arzuladığım mənzilimə çatmışam. Azərbaycan televiziyası mənim isti evimə, ocağıma çevrilmişdir.

Bu gün bir gənc olaraq "salam, əziz Televiziyam" deyə bilirəm.